**Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İxtisaslaşdırılmış çek investisiya fondları haqqında ?sasnamə ?də dəyişikliklər edilməsi barədə**

AZ ?RBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN F ?RMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında ? Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə ? Azərbaycan Respublikasının 2012-ci il 1 may tarixli 350-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 579 nömrəli Fərmanı (Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (aprel-iyun 1997); Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 7, maddə 423; 2000, 12, maddə 844; 2005, 5, maddə 403; 2009, 3, maddə 163) ilə təsdiq edilmiş "İxtisaslaşdırılmış çek investisiya fondları haqqında ?sasnamə ?nin 9-cu hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1. Çek investisiya fondu illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə hesabat dövrü başa çatdıqdan sonra növbəti il aprel ayının 30-dan gec olmayaraq Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə və təsisçiyə (təsisçilərə) təqdim etməli, habelə dövri mətbu nəşrdə və fondun internet səhifəsində (varsa) dərc etdirməlidir. ?.

2. 2-ci bəndin birinci abzası, birinci və ikinci yarımbəndləri aşağıdakı redaksiyada verilsin:

"2. İllik maliyyə hesabatları "Mühasibat uçotu haqqında ? Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tərtib edilməli, uçot siyasəti və izahlı qeydlərdə isə əlavə olaraq aşağıdakılar əks etdirilməlidir:

- fondun investisiyalarının siyahısı və onun açıqlaması (səhmlərin sayı, növü və hesabat tarixinə bazar qiyməti);
- hesabat dövrü ərzində ödənilmiş dividendlər; ?.

**İlham ?LİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 dekabr 2014-cü il
426